# XANIMDƏRSİNİN GÖZLƏRİNDƏ

Əpruz bacıya

Hər anla dərinləşən, duru bir su kimidir keçmiş zaman. Biz bu gün, uzaq bir keçmişi düşünərkən, dərin və duru bir suya baxırıq sanki. Balıqları və ayrı-ayrı su canlılarını görə bilirik; ancaq bir kölgə, bir qaraltı kimi. Balıqların rənglərini, böyüklüyünü ayırd edə bilmək çox çətindir. Bütün rənglərin üstünü bir uzaqlıq kölgəsi örtmüşdür. Sarımı, qırmızımı, bozmu?! Bəlli deyil.

****

Otuz üç ilə yaxın, keçmiş bir zamanda, ilk dəfə idi yaşadığım Miyana şəhərinin uzaqlarında, Qızılüzən kənarında yerləşən Koblan kəndinə gəlmişdim. Məndə bu kəndə marağı, anam oyatmışdı.”Çox qonaqsevər və yaxşı insanlardılar, evlərini uca qayalar üstündə tikərlər.” Deyərdi. Mənimlə gələn bir dost da yanımdaydı. Biz kəndin yaxınlığında bir tut bağına çatdıq. Ah tutların ballaşan vaxtı! Ağacların altına iri-iri, şirin-şirin səpələnən tutlara həsrətlə, utana-utana baxırdıq! “Birdən döşürüb yeyərkən bağın yiyəsi bizi görməzmi?!” düşünürdük. Bizə doğru gələn bir gənc qadın bizi bu düşüncədən qurtardı: “Xoş gəlmisiniz, buyurun dincəlin, tutlardan yeyin, indi sizə çay da hazırlayaram, görünür uzaqdan gəlirsiniz.” Kənd geyimində olan bu gənc qadının bu qədər canayaxınlığı, bu qədər özünü sərbəst aparması uzun bir yolun yorğunluğunu canımızdan çıxardı. Bir azdan balaca qızı da bizə qoşuldu, dörd yaşı olardı bəlkə. Adını soruşduqda, anası: ”*Xanımdərsidir*” dedi. Biz də adımızı dedik, gənc qadın da: “Mənim də adım Əpruzdur” dedi. Uşağa baxmaqdan doymaq olmurdu! Anası kimi, kənd paltarında. Almalar kimi, qırmızı yanaqları. İri, gözəl gözləri gülüşlə dolu.

Əpruz bacıyla dostluğumuz illərdən illərə keçdi. Ailəsiylə də tanış olduq və Əpruz bacı Bizim sevimli və unudulmaz dostumuz oldu.

Otuz üç ilə yaxın, keçmiş bir zamanı düşünəndə, sanki dərin və duru bir suya baxaram. Su altından keçən balıqların rəngini və görünüşünü ayırd etmək çətindir. Bu uzaqlıq kölgələrinə bürünmüş suda, balaca bir balıq görərəm. Bu balığın bütün rənglərini, bütün gözəlliyini ayırd edə bilərəm. Bu balıq heç böyüməz, sanki ondan, heç zaman keçməz! Bu balıq, Xanımdərsidir.

Mən o zaman Xanımdərsi üçün bir şeir yazmışdım. O şeiri bitirə bilmədim. Ancaq unuda bilmədim də. O bitməyən, o unuda bilmədiyim şeiri bu zaman bitirməyə çalışdım, bitdimi? Bilmirəm!

*XANIMDƏRSİNİN GÖZLƏRİNDƏ*

*Xanımdərsinin gözlərində*
*Bir bulaq vardır*
*Üzər duru sularında*
*Qırmızı*
*bir*
*balıq.*

*Xanımdərsinin gözlərində*
*Bir cığır vardır*
*Uzanar yaşıl bir bağa*
*Keçər tutların altından*
*Enər*
*doğma*
*Qızılüzənə.*

*Xanımdərsinin gözlərində*
*Bir quş vardır*
*Ötər şirin mahnısını*
*Gözləri  var*
*nar dənəsi*
*Dimdiyi çiçək qoxuyar*
*Açdımı qanadlarını*
*Bir göy qurşağı*
*açılar*
*havada.*

*Xanımdərsinin gözlərində*
*Bir ev vardır*
*Durar uca bir qayanın üzərində*
*Baxar qıvrılan yollara*
*Açılan bağlanan pəncərəsi*
*Pıçıldayar:*
*Gəlin dünyanın hər yanından*
*Qonaqlarım!*
*Koblanımın köksündə*
*Dost ürəyi*
*Süfrəsində*
*İsti çörək*
*Küzəsində*
*Sərin su var*
*qonaqlara.*

Berlin, 2008